**K O N S T İ T U S İ Y A H Ü Q U Q U ; İ N Z İ B A T İ H Ü Q U Q**
**C O N S T I T U T I O N A L L A W ; M U N I C I P A L L A W**

UOT 342; UOT 342.5

**ARAZ QƏDİMƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: arazqadimaliyev@mail.ru*

# MƏHKƏMƏ HAKİMİYYƏTİ KONSTİTUSİYA İSLAHATLARI KONTEKSTİNDƏ

Məhkəmə hakimiyyəti bir sosial-hüquqi hadisə olduğundan, ona maraq zamanla nəinki azalmır, hətta siyasi-hüquqi islahatlar və konstitusional modernləşmə prosesi dövründə xüsusilə artır. Məhkəmə hakimiyyətinin dövlət hakimiyyət sistemində əhəmiyyətli rol oynamasına baxmayaraq, konstitusiya hüququ doktrinasında məhkəmə hakimiyyəti anlayışına vahid yanaşma mövcud deyil.

Avropa konstitusiya doktrinası ənənəsinə əsasən, məhkəmə hakimiyyəti öz təbiətinə və hüquqi məzmununa görə, vəzifə və səlahiyyətləri baxımından qanunvericilik və icra hakimiyyəti qollarından əhəmiyyətli dərəcədə fərqlənir və onun təkamül inkişafına əsaslanan müəyyən xüsusiyyətlərə və fərqliliyə malikdir.

Məhkəmə hakimiyyəti anlayışının sistemli təhlili onun xüsusiyyətlərini açmağa imkan yaradan müxtəlif istiqamətləri aşkar etməyə imkan yaradır. Müasir hüquqi doktrinada “məhkəmə hakimiyyəti” kateqoriyası müxtəlif mənalarda istifadə olunur və çoxmərhələli hüquqi məzmuna malikdir.

“Məhkəmə hakimiyyəti” kateqoriyasının təhlili, ilk baxışdan, bu anlayışın müəyyən universallığını və sistemliliyini ifadə edir. Konstitusiya hüququnun müasir doktrinasında, məhkəmə hakimiyyəti geniş mənada, hakimiyyət bölgüsü prinsipinə əsaslanan hüquqi dövlətin əlamətləri olan qurumlar yaratmaq niyyətini əks etdirən siyasi və hüquqi fenomen hesab olunur [7, s.628].

A.S.Beznasyuk və X.U.Rustamovun fikrincə, məhkəmə hakimiyyəti cəmiyyətdə yaranmış sosial mübahisələrin həllinə hüquqa müvafiq təminat verir, ictimai həyatın bütün subyektlərini qanuna tabe edir, habelə qanunvericilik və icra hakimiyyəti qollarının çəkindirmə və tarazlaşdırılmasında mühüm rol oynayır, onların fəaliyyətinə hüquqi nəzarəti həyata keçirir. Məhkəmə hakimiyyətinin bu səlahiyyəti qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinin Konstitusiyaya uyğunluğunu qiymətləndirmək imkanı olduqda daha məhsuldar olur [8, s.17].

Elmi ədəbiyyatda geniş yayılmış mövqeyə əsasən, məhkəmə hakimiyyəti məhkəmə sistemi ilə eyniləşdirilir. Xüsusilə N.Vlasenko və A.Vlasenko məhkəmələri dövlətin milli-dövlət və inzibati-ərazi quruluşunu nəzərə alaraq, demokratik prinsiplər əsasında təşkil edilmiş məhkəmə sistemi adlandırır [9, s.4]. Rusiya tədqiqatçıları Y.A.Dmitriyevin və Q.Çeremnıxın fikrincə, məhkəmə hakimiyyəti – publik hüquqi təşkilatdır, qanunla nəzərdə tutulmuş səlahiyyətlərə malikdir və həqiqətin müəyyən edilməsinə, ədalətin bərpasına, mübahisələrin həllinə və təqsirli şəxslərin cəzalandırılmasına yönələlmiş, hər şəxs üçün icrası məcburi olan qərarları qəbul etmək səlahiyyəti olan dövlət orqanları sistemidir [10, s.48]. G.Muraşin məhkəmə hakimiyyətini məhkəmə iclaslarında mübahisə və münaqişələri həll etmək üçün ədalət mühakiməsini həyata keçirmək üçün dövlətin adından məsuliyyət daşıyan müstəqil dövlət orqanları sistemi adlandırır [11, s.68].

V.D.Brintsev məhkəmə hakimiyyətini konstitusiya, iqtisadi, cinayət, inzibati və mülki

ədalətin təmin edilməsi və həyata keçirilməsi üçün məhkəmə sisteminin bütün hissələrinin hüquqi fəaliyyəti kimi görür [12, s.25].

Ədalət mühakiməsi – məhkəmə hakimiyyətinin əsas komponentidir. Məhkəmə hakimiyyəti ədalət mühakiməsi yolu ilə həyata keçirilir. Məhkəmə icraatı - məhkəmə hakimiyyətinin əsas əlaməti olaraq, onun vasitəsi ilə iş üzrə həqiqəti, pozulmuş hüquqların bərpa edilməsi, qanunun və ədalətin aliliyinin təmin edilməsini həyata keçirilir. Lakin, məhkəmə hakimiyyəti - yalnız ədalət mühakiməsi demək deyil. Bu kateqoriya ilə bütün məhkəmə sistemi, hakim korpusu, məhkəmə aparatı, məhkəmələrin yerləşdiyi binalar, təşkilati və resurs dəstəyi elementləri də əhatə olunur. Təsadüfi deyil ki, məhkəmə hakimiyyətinin vəziyyəti və keyfiyyəti yalnız ədalət mühakiməsi səviyyəsindən deyil, həm də yuxarıda göstərilən amillərdən asılıdır. Beləliklə, məhkəmə hakimiyyəti çoxfaktorlu və çoxtərəfli bir fenomendir [13, s.30].

Fikrimizcə, məhkəmə hakimiyyətinin ən əsaslı və ətraflı anlayışı, yalnız ümumi və ixtisaslaşdırılmış məhkəmələr sistemi ilə məhdudlaşmayan və bu səbəbdən təşkilatın iki formasında - həm məhkəmə qaydası, həm də məhkəmə quruluşu kimi fəaliyyət göstərən dövlət hakimiyyətinin müstəqil növü kimi görsənməsi A.A.Selivanova aiddir [14, s.305].

Məhkəmə hakimiyyəti tərəflər arasında hüquqi mübahisələri ədalətli həll etmək vasitəsilə mediator rolunu oynayır. Məhkəmə hakimiyyəti, özünün xüsusi funksiyaları və siyasi, hüquqi təyinatı ilə müəyyən bir tarixi zamanda dəyişiklik dinamikasına malikdir. Bu baxımdan məhkəmə hakimiyyəti sahəsində konstitusiya islahatlarını nəzərdən keçirərkən "dinamizm" kateqoriyasının vacibliyi aktuallaşır.

"Konstitusiya dinamikası" termini müasir konstitusiya hüququ üçün xarakretikdir. Ümumiyyətlə, konstitusiya dinamikası konstitusiyanın dinamik aspektini əks etdirərək statik keyfiyyətlərə qarşı çıxan prosesdir.

Azərbaycanda insan hüquq və azadlıqlarının təminatı dövlətin ali vəzifəsidir. İnsan hüquqların təminatı mexanizmi isə daim təkmilləşdirilir. Bu öz növbəsində statik olan konstitusion müddəalara müəyyən dinamika yaradır.

Qeyd edilənləri 2002, 2009 və 2016-cı il konstitusiya islahatlarında müşahidə etmək olar. Məsələn, 2002-ci il Konstitusiya islahatları nəticəsində hər bir kəsə fərdi şikayət qaydasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verildi, 2009-cu il və xüsusi ilə 2016-cı il islahatlarında isə məhkəmə müdafiə hüququ daha da genişləndirildi.

26 sentyabr 2016-cı il Referendumunda Konstitusiyanın 60-cı maddəsi insan hüquqlarının məhkəmə müdafiəsi sahəsində əsas konstitusion təminat olduğundan ciddi şəkildə genişləndirildi və müvafiq məhkəmə islahatlarına uyğun təkmilləşdirildi.

Məhkəmə müdafiəsi hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, Konstitusiyada təsbit edilmiş digər hüquq və azadlıqların təminatı qismində də çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bir sıra qərarlarında bu maddəni geniş şərh edərək göstərmişdir ki, sözügedən hüquq yalnız məhkəməyə müraciətlə məhdudlaşmır, habelə pozulmuş hüquqları və azadlıqları səmərəli bərpa etmək iqtidarında olan ədalət mühakiməsini də nəzərdə tutur. Lakin islahatlardan əvvəl 60-cı maddənin adında insan hüquq və azadlıqların təminatı kimi yalnız məhkəmə göstərilirdi.

Son zamanlar Azərbaycanın məhkəmə sistemində ciddi islahatlar aparılmışdır. Ən önəmlisi də odur ki, postsovet ölkələri sırasında Azərbaycanda ilk ölkələrdən biri olaraq inzibati mübahisələrlə əlaqədar inzibati məhkəmələr təsis edilmişdir. 2005-ci ildə isə "İnzibati icraat haqqında" Qanun qəbul edildi. Bu Qanun inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən etmişdir. Maddi normaları müəyyən edən adı çəkilən qanunun realizəsi məqsədi ilə 2009-cu ildə İnzibati-

Prosessual Məcəllə də qəbul edildi. Qeyd edilən iki qanun insanların inzibati icra sahəsində hüquqlarının müdafiəsinin hüquqi təminatçısına çevrildi və inzibati icra sahəsində insan hüquqlarının mühafizəsi mexanizmində iki mərhələ yarandı inzibati icraat və inzibati məhkəmə mərhələsi.

Beləliklə, Azərbaycanın hüquq sistemində yeni yaradılan İnzibati Ədliyyə Sistemi inzibati icraatı və inzibati məhkəmə baxışı mərhələsini əhatə etdiyindən, 2016-cı il konstitusiya islahatlarında Konstitusiyanın 60-cı maddəsi yeni redaksiyaya verilərək maddənin adında və yeni əlavə edilmiş 2 və 3-cü bəndlərində inzibati təminat (yəni inzibati icraat qaydasında müdafiə hüququ) termini əlavə edildi. Bununla konstitusiya islahatları mövcud məhkəmə islahatlarının təminatçısına çevrilirdi və müvafiq konstitusion dinamikanı nümayiş etdirdi.

Özünün inkişaf dinamikasına qadir olan məhkəmə hakimiyyətinin ontoloji xüsusiyyətlərini nəzərə alaraq, qeyd etmək lazımdır ki, məhkəmə islahatı məhkəmə hakimiyyətinin yenidən qurulması dövlət hakimiyyətinin müstəqil bir qoluna çevrilməsi hesab edilə bilər. İslahatların əsas məqsədi isə beynəlxalq normativ sənədlərdə müəyyən edilmiş qlobal prinsiplərə və standartlara uyğun olan məhkəmə fəaliyyətinin yeni mexanizmini yaratmaqdır. Bu halda, ilk növbədə, ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsi və həyata keçirilməsi üçün hüquqi vasitələrin beynəlxalq standartlarını müəyyən edən "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktdan və "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını qeyd etmək lazımdır.

Beynəlxalq hüququn məhkəmə sistemlərinin fəaliyyətinə təsiri nəticəsində qanunvericilikdə hakimlərin seçilməsi, hazırlanması, təyin edilməsi, təşviqi, məsuliyyəti formalaşdırılır. Bu qaydaları ilk növbədə BMT-nin Baş Assambleyasının 29 noyabr və 13 dekabr 1985-ci il tarixli 40/32 və 40/146 saylı qərarları ilə təsdiq edilmiş Məhkəmə Hakimiyyətinin Müstəqilliyi haqqında əsas prinsipləri, Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş sənədləri, məsələn, Hüquq vasitəsilə demokratiya Uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), Ədalət mühakiməsinin səmərəliyi üzrə Avropa Şurasının Komissiyası (CEPEJ), Avropa Hakimlərinin Məsləhət Şurası (CCEJ), bu təşkilatlar çərçivəsində görüşlər və konfransların materialları təşkil edir. Həmin sənədlər bir qayda olaraq tövsiyə xarakterlidir. Lakin BMT və Avropa Şurası üzvləri müvafiq olaraq milli qanunvericilikdə və məhkəmə fəaliyyətinin təşkilində bu standartları nəzərə alırlar.

Eyni zamanda bəzi alimlər məhkəmə sisteminin islahat prosesində "Avropa standartları" kateqoriyasından istifadə edilməsinə skeptik yanaşırlar. Onların fikirincə, Avropa standartlarına riayət etmək xüsusi bir qaydada məhkəmə sisteminin quruluşunu nəzərdə tutmur.

Məsələn, M.İ.Kozyubra hesab edir ki, məhkəmə hakimiyyətinin Avropa standartları – məhkəmə sisteminin qurulması üçün lazım olan standart deyil, yalnız onun islahatına yönəldilən müəyyən dəyərlərdir [15, s.48].

Təbii ki, nəzərə almaq lazımdır ki, məhkəmə sisteminin strukturunu digər ölkələrdən "köçürmək" olmaz. Ayrı-ayrı elementləri mənimsəmək olsa da, bütövlükdə bir milli qanunvericilik sistemini digərinə köçürülməsi məhkəmə sisteminin sərbəst işləməyinə ciddi maneələr yarada bilər və ya formal olaraq normativ səviyyədə qala bilər. Buna misal kimi Azərbaycanın cinayət-prosessual qanunvericiliyində bir müddət andlı iclasçıların olmasını göstərmək olar.

Ümumi mənada məhkəmə islahatlarına gəlincə isə, qeyd etmək olar ki, məhkəmə islahatının məqsədi onun məzmunu, islahat istiqamətləri və daha faydalı tətbiq edilməsi mexanizminin yaradılması kimi başa düşülür. Konstitusion baxımından məhkəmə islahatının aparılması isə ədalətli cəmiyyətin möhkəmləndirilməsinə xidmət edən amildir.

Məsələn, 18 mart 2009-cu il konstitusiya islahatlarında Konstitusiyanın 125-ci maddəsinə əlavə edilərək məhkəmə icraatının məqsədi dəqiq göstərildi. Konstitusiya səviyyəsində

təsbit edildi ki, məhkəmə icraatının məqsədi həqiqəti müəyyən etməkdir [1].

Həqiqətin müəyyən edilməsi – ədalət mühakiməsinin mütləq şərtidir. Həqiqəti müəyyən etmək işə düzgün baxılması və həll edilməsi üçün əhəmiyyət daşıyan halların obyektiv, tam və hərtərəfli araşdırılması yolu ilə mümkündür. Mülki-Prosessual Məcəllənin 14.1-ci maddəsində iş üzrə məhkəmə baxışının prinsiplərindən biri kimi göstərilir ki, məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır [6].

Cəmiyyət məhkəmədən, hakimlərdən məhz həqiqəti tələb edir. Yalnız bu yolla məhkəmə hakimiyyətinin nüfuzunu qaldırmaq, məhkəməyə inamı bərqərar etmək olar. O da qeyd edilməlidir ki, hakimlərin həqiqəti müəyyən etmək vəzifəsi onların nəinki hüquqi, həm də mənəvi borcudur.

Lakin həqiqət hər zaman bir mənalı başa düşülməməlidir. Bununla əlaqədar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 18 mart 2019-cu il tarixli Qərarında bildirmişdir ki, mülki məhkəmə icraatında Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır. Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir [2].

Bununla yanaşı, Azərbaycanda məhkəmə qərarların icrası məsələsinin aktuallığını nəzərə alaraq, 18 mart 2009-cu ildə Konstitusiyanın 129-cu maddəsində dəyişikliklər edilərək insan hüquq və azadlıqlarının məhkəmə təminatlarının möhkəmləndirilməsi təmin edildi. Qeyd edilən maddəyə əlavə edilən II hissədə göstərildi ki, məhkəmə qərarlarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur [1]. Bu müddəanın Konstitusiya səviyyəsində təsbit edilməsinin çox böyük əhəmiyyəti vardır.

Məhkəmə qərarlarının icrası məhkəmə hakimiyyətinin nüfuzunun və səmərəliliyinin ən mühüm göstəricilərindən biridir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi öz qərarlarında dəfələrlə qeyd etmişdir ki, məhkəmənin qəbul etdiyi qərarın icrası ədalətli məhkəmə araşdırmasının ayrılmaz hissəsi kimi nəzərdən keçirilməlidir və hüququn aliliyi prinsipindən irəli gəlir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində məhkəmə qərarını icra etməməyə görə məsuliyyət müəyyən edilmişdir. Bu Məcəllənin 306-cı maddəsində göstərilir ki, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını və ya qərarını qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə – beş yüz manatdan min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə isə, min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma

hüququndan məhrum edilməklə və ya edilməməklə bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [4].

Bundan əlavə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məhkəmə qərarlarının icrası ilə əlaqədar məhkəmə icraçılarının tələblərinin yerinə yetirilməməsinə görə inzibati məsuliyyət nəzərdə tutulur [5].

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əlavə edilən yeni III hissədə isə məhkəmə qərarlarının qanuna və sübutlara əsaslanması ilə bağlı mühüm prosessual təminat konstitusion prinsip səviyyəsinə qaldırıldı.

Məhkəmə qərarlarının qanuni və əsaslı olması tələbi prosessual qanunvericilikdə təsbit edilmişdir. Məsələn, Cinayət-Prosessual Məcəlləsinin 394.3-cü maddəsində deyilir ki, "məhkəmənin hökmü qanuni və əsaslı olmalıdır". Qanuni o hökmlər sayılır ki, onlar Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tələblərinə riayət edilməklə çıxarılır (CPM 349.4-cü maddəsi) [3]. Məhkəmənin hökmü o zaman əsaslı hesab edilir ki: məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanır; bu sübutlar ittihamın qiymətləndirilməsi üçün kifayət edir; məhkəmənin müəyyən etdiyi hallar onun tədqiq etdiyi sübutlara uyğun gəlir (CPM 349.5-ci maddə) [3]. Analoji müddəalar Mülki-Prosessual Məcəllənin 217-ci maddəsində öz əksini tapmışdır [6].

Təbii ki, göstərilən prinsipin Konstitusiyaya daxil edilməsi ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsində, məhkəmələrin fəaliyyətində olan problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaqdır. Məhkəmə islahatlarının mütəmadi olaraq həyata keçirilməsi isə bu kateqoriyanın mahiyyətinin hər hansı bir tarixi mərhələdə həyata keçirilməsi prosesinin ziddiyyətli və mürəkkəb olmasını bir daha sübut edir.

Müasir Azərbaycan üçün isə məhkəmə və hüquqi islahatlarında universal və Avropa standartlarının inkişafı təcrübəsinin nəzərə alınması, demokratik yolda inkişaf edən dövlət üçün istənilən nəticələrin əldə edilməsində səmərəli vasitədir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Qanun, 2019.
2. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 18 mart 2019-cu il tarixli Qərarı // http://www.constcourt.gov.az/decisions/425
3. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi, Bakı: Qanun 2019.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı: Qanun 2019.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Bakı: Qanun 2019.
6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, Bakı: Qanun 2019.
7. Баглай М.В. Конституционное право Российской Федерации: учеб. для юрид. вузов / М. В. Баглай. – Москва: Норма-инфра, 2016.
8. Безнасюк А.С. Судебная власть. Учебник для вузов / А.С.Безнасюк, Х.У.Рустамов. – Москва: ЮНИТИ-Дана, 2012.
9. Власенко Н.А. Судебная власть и судебная деятельность в Российской Федерации: [краткий курс лекций] / Н.А.Власенко, А.Н.Власенко. – Москва: Российская акад. правосудия, 2005.
10. Дмитриев Ю.А. Судебная власть в механизме разделения властей и защите прав и свобод человека / Ю. А. Дмитриев, Г. Г. Черемных // Государство и право. – 1997. – № 8.
11. Мурашин Г.О. До питання реформування судової влади / Г. О. Мурашин // Правова держава. – Київ, 1997. – Вип. 7.
12. Брынцев В.Д. Судебная власть. Правосудие: Пути реформирования в Украине / В. Д. Брынцев. – Харьков : Ксилон, 1998.
13. Безнасюк А.С. Судебная власть : учеб. вузов / А. С. Безнасюк, Х. У. Рустамов. – Москва : ЮНИТИ-Дана, 2002. – С. 30-31
14. Селіванов А.О. Конституція. Громадянин. Суд. Професійні та суспільні погляди / А.О. Селіванов. – Київ : Рада, 2009.
15. Козюбра М.І. Судова влада в Україні / М. І. Козюбра // Право України. – 2009. – № 12.


***Açar sözlər:*** *Konstitusiya hüququ, məhkəmə hakimiyyəti, ədalət mühakiməsi, konstitusiya islahatları, konstitusiya dinamikası*

**Araz Gadimaliyev**
*Associate Professor, Department of Law,*
*the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan, PhD in Law*

# THE JUDICIARY WITHIN THE CONTEXT OF CONSTITUTIONAL REFORMS

## SUMMARY

The article analyzes the concept of the judiciary within the context of justice concept. Objective character of judicial reforms is based on systematic analysis of constitutional dynamics and their goals are revealed. The presented article also by means of a comprehensive and objective study of international progressive practices in the field of the formation of the judiciary emphasized the importance of this area in terms of human rights and freedoms. It is noted that the judiciary plays a role of mediator between the sides to solve legal controversy fairly. The judiciary with its special functions and political and legal appointments in a certain historical period has a dynamic change.

From this point of view, considering the constitutional reforms in the field of the judiciary, the importance of "dynamism" category is being actualized. Execution of court decisions in the article is considered as one of the important indicators of the reputation and effectiveness of the judiciary. It emphasizes that the European Court of Human Rights in its decisions repeatedly notes that the execution of a court decision should be considered as an integral part of the study of a fair court and expires from the principle of the rule of law.

***Key words:*** *constitutional law, judicial power, justice, constitutional reforms, constitutional dynamics*

**Араз Гадималиев**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

## СУДЕБНАЯ ВЛАСТЬ В КОНТЕКСТЕ КОНСТИТУЦИОННЫХ РЕФОРМ

### РЕЗЮМЕ

В статье понятие судебной власти анализируется в контексте понятия правосудия. На основе системного анализа конституционной динамики обосновывается объективный характер судебных реформ и раскрываются их цели.

Также путем всестороннего и объективного исследования международного передового опыта в сфере формирования судебной власти особо подчеркивается значимость данной области с точки зрения обеспечения прав и свобод человека. Отмечается, что судебная власть посредством справедливого разрешения правовых споров между сторонами играет роль медиатора (посредника). Судебная власть со своими особыми функциями и политико-правовым назначением в определенный исторический период обладает динамикой изменений. Рассматривая с этой точки зрения конституционные реформы в области судебной власти, актуализируется важность категории «динамизм». Исполнение судебных решений в статье рассматривается как один из самых важных показателей авторитета и эффективности судебной власти. Обращается внимание на то, что Европейский Суд по правам человека в своих решениях неоднократно отмечает, что исполнение судебного решения должна рассматриваться как неотъемлемая часть справедливого судебного расследования и вытекает из принципа верховенства закона.

***Ключевые слова:*** *конституционное право, судебная власть, правосудие, конституционные реформы, конституционная динамика*